# Tanınmış musiqi ifaçıları Qəbələ VII Beynəlxalq Musiqi Festivalı haqqında

(Əvvəli 3-cü səhifədə).

**Aleksey MİLTİX—Azərbaycanın əməkdar artisti Azərbaycan Dövlət Simli Kvartetinin üzvü:** Azərbaycan üçün mühüm tədbir hesab olunan bu festival eyni zamanda, musiqi vasitəsilə dünya xalqları arasında mədəniyyətlərarası dialoqa da öz töhfəsini verir. Dinləyicilər mənim kamera musiqi zalında beynəlxalq müsabiqələrin qalibi, festivalların iştirakçısı olan pianoçu Səidə Tağızadə ilə birgə səsləndirdiyim musiqi əsərlərindən böyük zövq aldılar. Bu. bizə də xoşdur. Çünki bu zalda musiqi səsləndikdə və ya ifaçılar oxuyanda elə bir ahənglik yaranır ki, sanki hər kəs bu anı eyni dərəcədə zövqlə yaşayır. Zənnimcə festivalın miqyası gələcəkdə artaraq daha çox ölkələrdən iştirakçılar cəlb edəcək.



**Aleksandr QİNDİN—Rusiyalı pianoçu, bir çox beynəlxalq müsabiqələrin qalibi, Stokholmda keçirilən İsveç Kral Festivalının və "Ermitaj solistlər ansamblının bədii rəhbəri":** gözəl məkan, gözəl insanlar və əla musiqi—bütün bu amillər Qəbələdə keçirilən beynəlxalq musiqi festivalında harmoniya təşkil edir. Bu bayram özündə dünyanın dörd bir yanından olan tanınmış musiqiçiləri birləşdirir. Festivalın proqramı olduqca zəngindir. Yerli və xarici tamaşaçılar konsertlərdən böyük zövq alırlar. Hər il müxtəlif orkestrlər festivala qatılır. İstirahət etmək üçün bura gələn insanların səsləndirdiyim musiqi əsərlərini ayaqüstə alqışlamaları mənim üçün xoşbəxtlikdir.



# Qəbələ Beynəlxalq Musiqi Festivalında Cahangir Qarayevin bərpa edilmiş əlyazmasının təqdimatı olub

Bu günlərdə VII Qəbələ Beynəlxalq Musiqi Festivalı çərçivəsində Azərbaycanın fortepiano və bəstəkarlıq məktəbinin parlaq nümayəndələrindən biri olan Cahangir Qarayevin (1950-2013) sonatasının təqdimatı olub. Festivalın bədii rəhbəri, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, xalq artisti, professor Fərhad Bədəlbəylinin elmi redaktorluğu ilə "Təhsil" nəşriyyatı tərəfindən hazırlanaraq nəşr edilmiş bu üçhissəli əsər dünyadan vaxtsız köçmüş gözəl bəstəkarın və pianoçunun 65 illik yubileyinə həsr olunub.



Bakı Musiqi Akademiyasının Orta ixtisas musiqi məktəb-studiyasının direktoru, əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, xüsusi fortepiano kafedrasının professoru Tərlan Seyidov AZƏRTAC-a bildirib ki, nəşrin əsasında C. Qarayevin itirilmiş əlyazmasının BMA-nın məktəb-studiyasının arxivində saxlanılan keyfiyyətsiz surəti olub. Surəti nəşrə hazırlayan zaman sonatanın not mətnini bərpa və redaktə etmək üçün böyük və çoxşaxəli iş görülüb. Yenidən yığılan mətnlə yanaşı, itirilmiş əlyazmanın əslinin reproduksiyasının nəşrə əlavədə yerləşdirilməsi onu daha dəyərli edib.

Təqdimatı açan sənətşünaslıq doktoru Ceyran Mahmudova Cahangir Qarayevin yaradıcılığının əsas mərhələlərini xarakterizə edərək bildirib ki, 1976-cı ildə yazdığı fortepiano üçün sonata onun yaradıcılığında xüsusi yer tutur. Burada sonata formasının sərbəst traktovkası bədii təfəkkürün dərin milli zəminınə söykənir. Bu əsər üçün spesifik olan monosentrizm (üç hissənin hər biri vahid mövzuya əsaslanıb) sonata formasının kanonlarının yoxluğu ilə bağlıdır. Sonatada təkcə dil vasitələri, forma detalları səviyyəsində deyil, daha geniş əhatəli səviyyədə - musiqi dramaturgiyası səviyyəsində muğamın stilistik qanunauyğunluqları ilə əlaqə üzə çıxır.

Cahangir Qarayevin əsəri məktəb-studiyanın müəllimi, pianoçuların Beynəlxalq müsabiqəsinin laureatı Fəqan Həsənlinin yüksək bədii interpretasiyasında təqdim olunub. Sonata onun virtuoz ifasında coşqun improvizasiya kimi səslənib və dinləyicilər tərəfindən böyük maraqla qarşılanıb.

Xatırladaq ki, bu nəşr BMA-nın məktəb-studiyasının itirilən əlyazmaların saxlanılan surətləri əsasında bərpası üzrə ikinci redaktor işidir. Daha əvvəl böyük bəstəkar Qara Qarayevin 1939-cu ildə yazdığı və ilk dəfə 75 il sonra Azərbaycan Bəstəkarlar İttifaqının festivalında səslənən fortepiano üçün üçsəsli fuqa bərpa və nəşr edilib.

# Qəbələ VII Beynəlxalq Musiqi Festivalında 76 min fındıqdan hazırlanan tar nümayiş olunub

Qəbələ VII Beynəlxalq Musiqi Festivalı mədəniyyətimizin təbliği baxımından mühüm hadisədir. Festivalın keçirildiyi Heydər Əliyev Konqres zalının həyətində simvolik tar maketinin qoyulmasının əsas məqsədi də elə qədim Azərbaycan tarını tanıtmaqdır.

AZƏRTAC xəbər verir ki, 76 min fındıqdan hazırlanan tarın hündürlüyü 5 metr, eni 1,20 metrdir. On gün müddətinə ərsəyə gələn tarın üzərində 8 nəfər çalışıb. Aləti hazırlayan ustalardan biri - Aslan Kazımov deyir ki, tarın maketi üzərinə yapışdırılan fındıqların bir hissəsi, daha doğrusu, ağ rəngdə olanlar qovrulub, qalan hissələr isə qabıqlı fındıqlardır. Ustalar gecə-gündüz dayanmadan çalışıblar ki, Azərbaycanın bu milli alətini festivalın açılışına çatdırsınlar və çatdırıblar da.




Tarın düzəldilməsində usta Asim Ağasəfovun da zəhməti olub. O deyir ki, Qəbələ qoz, fındıq, şabalıd kimi çərəzləri ilə məşhurdur. Odur ki, simvolik olaraq fındıqdan istifadə edilib. Festivala gələn xarici qonaqlar və musiqiçilər diqqəti cəlb edən bu tarla maraqlanır, onun yanında xatirə şəkli çəkdirirlər.

Ustalar ilk festivalda şokoladdan piano hazırladıqlarını da bildirdilər. Ötən il isə düzəltdikləri tara olan marağı gördükdən sonra builki festivalda da məhz bu alətə üstünlük veriblər. Növbəti festivalla bağlı artıq ideya da hazırdır. Ustalar Azərbaycanın daha bir qədim musiqi aləti olan kamançanı VIII Beynəlxalq Musiqi Festivalında nümayiş etdirəcəklər.

# Bakıda gənc kimyaçıların ümumdünya bilik yarısı başa çatdı

M. V. Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının təşkilatçılığı ilə iyulun 20-29-da Azərbaycanda ilk dəfə keçirilən 47-ci Dünya Kimya Olimpiadasına yekun vurulmuşdur. Bu hadisə Azərbaycanın elm, təhsil həyatında parlaq və olduqca əhəmiyyətli bir hadisə kimi tarixə yazıldı. M.V.Lomonosov adına Moskva Dövlət Universitetimnin Bakı filialının rektoru, filiologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü, 47-ci Beynəlxalq Kimya Olimpiadasının prezidenti Nərgiz Paşayeva demişdir: «Əgər elmi potensial yoxdursa, təbii, milli sərvətləri heç vaxt milli nailiyyətlərə cevirmək mümkün olmayacaq».

Qeyd edək ki bu möhtəşəm bilik yarışmasında 5 qitədən, 75 ölkədən 300 gənc kimyaçı, bundan əlavə 250-dən artıq kimya alimləri, münsiflər heyəti, kimya mütəxəssisləri, pedaqoqlar müşahidəçilər və qrup rəhbərləri iştirak etmişlər. Yarışmada 190 medal sahibini tapmışdır onlardan 51 ölkədən 92 nəfər bürünc medal (2 nəfəri azərbaycanlıdır), 33 ölkədən 63 nəfər gümüş medal, 22 ölkədən 35 nəfər isə qızıl medala layiq görülüb. Çin komandasının üzvü yıfu Ouyanq həm «Birincilər birincisi» həm də yaxşı nəzəriyyəçi adına layiq görülüb.